# Görkəmli şəxsiyyətlər Aşıq Ələsgər haqqında

- Aşıq Ələsgər çoxəsrlik keçmişə malik aşıq sənəti ənənələrinə ən yüksək bədii-estetik meyarlarla yeni məzmun qazandırmış, xalq ruhuyla həmahəng əsərləri ilə Azərbaycanın mədəni sərvətlər xəzinəsinə misilsiz töhfələr bəxş etmişdir...

**Azərbaycan Respublikasının Prezidenti,**
**İlham Əliyev**

- Hansı mövzuya əl atıram, hansı daşı qaldırıram, altında Dədə Ələsgərdən bir nişanə görürəm.

***Xalq şairi, Səməd Vurğun***

- Ələsgərin lirikası xalq şeirinin qızıl fonduna daxil olub. Çünki o, bədii üslubu cəhətdən xalqa bağlıdır, onun ədəbi ənənələri üzərində inkişaf etmişdir.

***Xalq yazıçısı, Mehdi Hüseyn***

- Aşıq Ələsgərin yaradıcılığı Azərbaycan poetik fikrinin inkişafında parlaq və gözəl bir səhifədir ki, o, insanın ürəyində doğrudan da çox nəcib duyğular oyadır, insana böyük zövq və ləzzət verir.

***Xalq yazıçısı, Mirzə İbrahimov***

- Aşıq Ələsgər xalqla üzvi surətdə bağlı olduğundan, elin arzu-əməllərilə yaşadığından, öz sazı, sözü ilə ona ləyaqətlə xidmət etdiyindən çox xoşbəxt bir sənətkardır. Qılıncların, nizələrin yaraladığı, lakin qapısını aça bilmədiyi ürəkləri böyük aşıq sazın-sözün, əqlin-kamalın, müdrik ustadnamələrin, şirin qoşmaların, könülaçan müxəmməslərin və gəraylıların eçazkar qüdrətilə fəth etdi.

***Xalq şairi, Osman Sarıvəlli***

Dərdini ellərə sazla danışdı,
Göyçə mahalının, Göyçə gölünün
Eşqilə neçə yol yanıb alışdı,
“Göyçə gözəlinin”, “Göyçə gülünün”.

***Xalq şairi, Hüseyn Arif***

Unudulmaz el bəzəyi, el oğlu,
Hər gün onu saz dinlədi, saz andı.
Yaratdığı gəraylıda, qoşmada,
Yüz il, min il şair ömrü uzandı.

- Aşıq Ələsgər deyiləndə Dədə Qorquddan bu günədək böyük şəxsiyyətlər, ozanlar, ustadlar, peğənbərlər, imamlar və peyğənbər səviyyəli insanlar yada düşür. Aşıq Ələsgərin öz xalqına, millətinə və dünya mədəniyyətinə irs qoyub getdiyi xəzinə

inciylə, mərcanla, ləli-gövhərlə doludur. Kim nə qədər istəyir xərcləsin, bu xəzinə azalmır, əksinə getdikcə çoxalır, cilalanır, gözəlləşir...

***Xalq şairi, Zəlimxan Yaqub***

Dağlar qan ağlayır düşüb borana,
Daha bundan sonra çətin yarana.
Göyçə qana batsın, qaldı virana,
Daha Ələsgər tək ad alan varmı?!

***Zodlu Abdulla***

Nə qədər dünya var, bəşəriyyət var,
Günəş kimi qalasıdır Ələsgər.
Aşiq var, sevgi var, saf məhəbbət var,
Məhəbbətin badəsidir Ələsgər.

***

Söz məhəki, sərrafların ustadı,
Qızıl səhifədə həkk olub adı.
Könüllər sevinci, ağızlar dadı,
Anaların laylasıdır Ələsgər.

***Aşıq, Hüseyn Cavan***

- Gözəl və gözəllik, ümumiyyətlə, Ələsgər şeirinin əsasını təşkil edir. O, sözün tam və dəqiq mənasında gözəllik aşiqi, gözəllik məftunu, gözəllik nəğməkarıdır.

***Professor, Məmmədhüseyn Təhmasib***

- Dərin biliyinə, zəkasına və fitri istedadına görə Aşıq Ələsgəri aşıq sənətinin memarı hesab edirlər.

***

- Əgər Qurbani öz yaradıcılığında iki təcnis yaratmışdırsa, Ələsgər buna cavab olaraq iyirmi beş təcnis yazmışdır. Əgər Tufarqanlı Abbas cığalı təcnisin bir nümunəsini yaratmışdırsa, Aşıq Ələsgər bunun müqabilində dörd cığalı təcnis yaratmışdır. Aşıq Ələsgər sələflərindən və xələflərindən irəli gedərək aşıq poeziyasına dodaqdəyməz, təcnislər və cığalı təcnislər gətirmişdir.

***Filologiya elmləri doktoru, professor***
***Sədnik Paşa Pirsultanlı***

- Bütün böyük sənətkarlar kimi, Aşıq Ələsgərin yaradıcılığı da milli hadisədir, milli mədəniyyətin faktıdır. Ancaq böyük sənətkarların yaradıcılığı bunu da sübut

edib ki, bəşəriyə aparan yol öz başlanğıcını millidən götürür və mənada Ələsgərin yaradıcılığı da klassik bir nümunədir. O nə qədər millidirsə, bir o qədər də bəşəridir.

***Xalq yazıçısı, Elçin***

- Aşıq Ələsgərin yaradıcılığında insan gözəlliklərinin təsviri və tərənnümü xüsusi yer tutur.

***

- Aşıq Ələsgər böyük bir nacehdir. Onun yaradıcılığının əksər hissəsi oxucuya (dinləyiciyə) tərbiyəvi fikirlər aşılayır. Aşığın neçə-neçə bəndi, onlarla beyti və misrası xalqın dilində atalar sözü və zərb-məsəl olmuşdur.

***

- Aşıq Ələsgər böyükdür, ona görə böyükdür ki, min illik bir ənənənin axarında öz sözünü demiş, hüç kəsi təkrar etməmiş, qeyri-adi bir söz sənəti yaratmışdır.

***

- Aşıq Ələsgər hər bir azərbaycanlıya qan ilə keçmiş, onun mənəviyyatının bir hissəsinə çevrilmiş söz ustadıdır. Sehr dolu şeirləriylə Ələsgər möcüzəsi sadəliyin möcüzəsidir. Belə sənətkarlara eldə "Haqq aşığı" deyərlər. Qanında Dədə Qorqudu, Qurbanini, Qaracaoğlanı, Yunus Əmrəni, Sarı Aşığı daşıyan Dədə Ələsgər şirinliyi, doğmalığı - müdrikliyin, səmimiyyətin zirvəsidir. Ələsgər aşıq poeziyamızın sonuncu nəhəngidir. O, yaratdığı dilin və doğma xalqının yaddaşında büllur söz və musiqi kimi qalan gözəllik vurğunu, həyat aşiqi, saflıq və səmimiyyət ustadıdır. Sinəsini özünə dəftər edən Ələsgər aşıq şerinin, demək olar ki, bütün formalarına müraciət etmiş, qoşma, gəraylı, təcnis, qıfılbənd, dodaqdəyməzlər yaratmış, deyişmələr iştirakçısı olmuşdur.

***Filologiya elmləri namizədi,***
***İslam Ələsgər***

- Gözəllik nəğməkarı olmuş ustad aşığın dastan yaradıcılığına münasibəti həm dastan yaradıcılığı üsullarının öyrənilməsi, həm də aşığın sənətə verdiyi ictimai-siyasi əhəmiyyətin ifadəsi kimi maraqlı və qiymətlidir.

***Pedaqoji elmlər namizədi,***
***Şamxəlil Məmmədov***

- Aşıq Ələsgər qüdrətli sənətkar ömrünü sözə həsr edən, sözlər aləmində yaşayıb onunla nəfəs alan ədəbi şəxsiyyət, poeziya nəhəngidir. Bədii söz bu ulu korifeyin həyatı, daimi yol yoldaşı olmuşdur. Onun sözlə həmdəm, şair-filosof qəlbi odu, alovu, işığı sözdən almışdır. Ən önəmlisi odur ki, bu poetik söz çəngavəri sözə borclu qalmamışdır, öz ürəyinin hərarəti ilə onu cilalamış, ona əbədi həyat vermişdir.

***Filologiya elmləri doktoru, professor***
***Məhərrəm Hüseynov***

Qanar mətləbimi arif olan kəs,
Ömrü yaşamadın bihudə, əbəs.
Dildönməz, qıfılbənd, təcnis, müxəmməs,
Qalsa hərəsindən bir misal bəsdir.
Əziz dostlar, deyin, ayə, azdımı?
Düşübdür üstümə sayə, azdımı?
Ələsgərə bu sərmayə azdımı?
Verdiyim cavaba bu sual bəsdir.

***Şair-filosof, araşdırıcı***
***Hacı Loğman Babacanlı***

- Aşıq Ələsgər fitri istedad sahibidir. Onun istedadı əsas verir deyək ki, Ələsgəri heç kəslə müqayisə etmək olmaz. Ələsgər hər bir cəhətdən heç kəsə bənzəmir. O məhz Ələsgərdir. Şeyx, abdal, dərviş, ustad, aşıq  Ələsgərdir. Fəlsəfi-estetik görüşləri və özünəməxsusluğu ilə, aşıqlığı, dərvişliyi, şeyxliyi, ustalığı ilə hər bir kəsə nümunə ola biləcək Ələsgərdir. Ələsgər həqiqət və mərifət elminin bütün incəliklərini, bütün dərinliklərini bilən kamal sahibidir.

***

- Aşıq Ələsgər böyük söz ustadı, söz sərrafı idi. Öz şeirlərinin dilini “dalğa vuran dənizə” bənzədən, “aşığın lisanı gərək dür tökə, əksik danışmağa xəcalət çəkə” deyən böyük sənətkarın poeziyasında ana dilimizin şirinliyi, əlvanlığı, obrazlılığı, çoxmənalı ifadə gözəlliyi, poetik vüsəti bütün çalarları ilə, yüksək səviyyədə öz bədii ifadəsini tapmışdır.

***Filologiya elmləri doktoru, professor***
***Buludxan Xəlilov***

- Dədə Ələsgərin yaradıcılığını türk xalqının ensiklopediyası adlandırmaq olar.

***Filologiya elmləri namizədi,***
***Tamilla Əliyeva***

- XIX əsr Göyçə asıq mühitinin yetişdirdiyi ən böyük sənətkar heç şübhəsiz ki, Aşıq Ələsgər olmuşdur.

***Filologiya elmləri doktoru, professor***
***Hüseyn İsmayılov***